**Azərbaycan Tibb Universtetinin**

**İctimai Səhiyyə fakultəsinin**

**11.02.2020-ci il tarixli**

**Fakultə Elmi Şurasının iclasının**

# Q Ə R A R I

**Protokol № 5**

***İCTİMAİ SƏHİYYƏ FAKÜLTƏSİNİN ELMİ ŞURASI QƏRARA ALIR:***

I. 1. 2019/2020 tədris ilində qış imtahan sessiyasının nəticələrinin müzakirəsi və tədrisin keyfiyyətinin daha da yaxşılaşdırılması işində kollektivin vəzifələri barədə dekanlığın təqdim etdiyi hesabat qənaətbəxş hesab edilsin;

2. ATU-nun Ictimai sağlamlıq və səhiyyənin təşkili kafedrasının tədris müdiri, dosent K.Babayevin kafedranın illik fəaliyyəti barədə hesabatı qənaətbəxş hesab edilsin.

II. Kafedra müdirlərinə tapşırılsın ki:

1. Yaz sessiyasının başlanması ilə əlaqədar əmək intizamına və tədrisin keyfiyyətinə nəzarət gücləndirilsin;

2. Tədrisin keyfiyyətinin daha da yaxşılaşdırılması işində kollektivin vəzifələri barədə FEŞ-da diqqətə çatdırılan məsələlər kafedraların iclasında müzakirə edilsin və həmin iclasın protokolundan çıxarışın bir nüsxəsi 3 iş günü müddətində dekanlığa təqdim olunsun;

3. Yaz sessiyasının başlanmasına qədər dərs cədvəlləri, açıq dərslərin cədvəlləri, müəllimlərin dərs yükü, məsləhət saatları barədə məlumat dekanlığa təqdim edilsin və dərs cədvəllərinə riayət olunmasına, eləcə də tədris-metodiki və elmi-tədqiqat işlərinə nəzarət gücləndirilsin;

III. Problem Komissiyaların sədrlərinə tapşırılsın ki, kafedralarda elmi-tədqiqat işi aparan doktorant və dissertantların hesabatları qəbul edilmiş xüsusi formaya uyğun və xronoloji olaraq FEŞ-na təqdim olunsun;

IV. Dekanlığa tapşırılsın ki, nəzərdə tutulan işlərin yerinə yetirilməsinə nəzarəti gücləndirsin.

Qeyd: III bənddə adı çəkilən forma Qərara əlavə olunur.

Sədr: prof. A.Ə.Ağayev

Elmi katib: t.ü.f.d. Y.H.Hacıyeva